● Əsgərə məktub

# Xalqımız sizinlə fəxr edir

**Salam, mənim igid balam! Bala baldan şirin olur, bunu nənələrimiz deyib. Bu gün isə biz analar bal kimi balalarını Vətəni qorumağa, düşmən tapdağından azad etməyə xeyir-dua ilə yola salmışıq! Düşünün ki, siz öndə, biz analar da arxada Vətənə dayaq olmalıyıq!**

Əziz oğlum, Elçin! Siz iki əkiz qardaş Tanrının ailəmizə illərdən sonra göndərdiyi əvəzsiz nemət olmusunuz. Qardaşın Eminlə səni Vətənə layiq oğul kimi böyütmək mənim analıq borcum olub. Biz, atan Müzəffər Əliyevlə Kəlbəcərdə doğulsaq da, siz ana yurda həsrət ola-ola boy atdınız. Bakıda doğulub, Kəlbəcərin həsrəti ilə böyüyən əkizlərim, dünyaya gəlişiniz zamanı sağ-salamat böyüməyinizi, Vətənimizə layiq övlad olmağınızı diləmişik. Atan Kəlbəcərin müdafiəsinin son günü mühasirədən zülmlə çıxanlardan biridir. Müharibə veteranı və səhhətində problemi olmasına baxmayaraq, o da bu gün sizinlə çiyin-çiyinə döyüşməyə hazırdır. O, Qarabağın azadlığı uğrunda canından keçməyə hazır olan bir atadır! Sizinlə fəxr edir.



Sən Aviasiya Akademiyasını bitirib Heydər Əliyev adına Binə Hava Limanında ixtisasın üzrə çalışsan da, Vətənin dar günündə, siz oğullara ehtiyacı görüb, könüllü şəkildə Milli Orduya yazılanda atan da, mən də qürur hissi keçirdik! Bu, öncə Ali Baş Komandanımızın Qarabağımızın işğaldan azad edilməsi istiqamətində yürütdüyü hərbi, diplomatik siyasətindən, sizin kimi oğulların isə vətənpərvərlik duyğularından irəli gəlir.

Əziz oğlum, Azərbaycan Ordusunun qazandığı nailiyyət biz valideynlər üçün əvəzedilməz töhfədir. Xalqımızın Ali Baş Komandanı İlham Əliyevin ətrafında sıx, monolit birlik nümayişi düşməni ən müasir silahlardan da çox qorxudur. Erməni vandalizminin törətdiyi vəhşiliklər bu gün dünyaya olduğu kimi çatdırılır. Beynəlxalq aləm onların iç üzünü, çirkin niyyətlərini artıq başa düşür. Ona görə də təklənib, sizin müzəffər yürüşünüzün qarşısında duruş gətirə bilmədi. Buna görə də bizim döyüşlərdən uzaq kəndlərimizi, şəhərlərimizi atəşə tutub, dinc insanları məhv etməkdən çəkinmədilər.

Əziz balam, bütün bunlar düşmənin qorxaqlığının, vəhşiliyinin, hətta öz əsgərlərinə və onların analarına belə rəhmlərinin gəlməməsinin nəticəsidir.

Ali Baş Komandanımızın xarici televiziyalara müsahibəsində xalqımıza, dövlətimizə qarşı olanlara layiqli, tutarlı cavabları hamımızı qürurlandırır. Sevinirəm ki, Prezidentimiz belə vətənpərvər, hünərvər, siyasi dünyagörüşlü, xalqını və Ali Baş Komandan kimi Ordumuzu sevir, inkişaf etdirir. Biz arxa cəbhədə olsaq da, ürəyimiz sizinlədir! Əmin olun ki, hər qələbə sorağınız bizi ruhlandırır.

Biz sizinlə fəxr edirik! Ali Baş Komandanımızın dediyi kimi, “Qarabağ Azərbaycandır”!

Siz qalib əsgərlərsiniz.

***Sabirə ƏLİYEVA,***
***Bakı şəhəri, Binəqədi rayonu***

Azərbaycan.- 2020.- 15 noyabr.- S.7.